Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Millətimizin dünya səviyyəsində pasportu olan dahi rəhbər

Eldar Abasov: *"Ulu öndər həm də çox səmimi insan idi. Onun Azərbaycan üçün, Sovetlər birliyi üçün etdikləri bir yazının yox, cild-cild kitabların mövzularıdır"*

Azərbaycan tarixində əbədi yaşayacaq, ulu öndər,dahi şəxsiyyət Heydər Əliyevin əvəzsiz xidmətləri çoxdur. Onun ən böyük xidmətlərindən biri də azərbaycanlı gənclərin Rusiyanın və başqa SSRİ məkanında olan ölkələrin ali məktəblərində təhsil almasına yaratdığı şərait və bu müqəddəs məsələnin ideya müəllifi olmasıdır olub.1970-ci illərdən başlayaraq bu gənclər məhşur təhsil ocaqlarında oxuyub, elm ocaqlarında elmi işlər müdafiə edib Vətənə qayıdıb, burada əsas işlərdə işləməklə məmləkətimizin yüksək səviyyədə inkişafına böyük köməklik ediblər. Bu gün də həmin mütəxəssislər respublikamızda aparıcı kadrlar hesab olunurlar. Onlardan biri də dünyada tanınmış professor-hərkim Eldar Abasovdur. Ulu Öndərin 100 illik yubileyi ərəfəsində onunla həmsöhbət oldum.

- Salam, Eldar müəllim. Bu gün sizin adınız dünya tibb aləmində yaxşı tanınır və respublikamızın tibb aləminə öz sahənizdə çoxlu yeniliklər gətirmisiniz. Həm də bu gün Allahın lütfüdür ki, mən dünya şöhrətli iki məhşur həkimlə üz-üzə oyləşmişəm. Professor, tibb elmləri doktoru, Aktipol adlı dünyada tanınan dərmanın ixtiraçısı Paşa Qəlbinur və professor, tibb elmləri doktoru, ortopediya sahəsində çoxlu yeniliklərə imza atmış Eldar Abasovla. Çox maraqlıdır ki, biz hər üçümüz mart ayında dünyaya gəlmişik. Elə görüşü müz də mart ayına təsadüf eləyir.

- Düz deyirsiniz. Hər üçümüz bahar övladlarıyıq. Mən martın 3-də, siz martı 16-da və Paşa müəllim də martın 30-da dünyaya gəlmişik. Başqa ayda doğulanlar məndən incəməsin. Mart ayında doğulanlar insanla rə qarşı daha mərhəmətli və həm də İsdedadlı insanlar, yaxşı mütəxəssislər olurlar.

- Sizin Ulu Öndərlə bağlı çox maraqlı görüşlərinizi,təəssüratlarınız olub. İlk öncə özünüz haqqında qısa məlumat verin.

- Mən Azərbaycan Dövlət Tibb İnstitutunu fərqlənmə diplomu ilə bitirmişəm (indiki Dövlət Tibb Universiteti). İndi də bu ali məktəbin professoruyam. Bu ali məktəbi bitirəndən sonra Moskvada, Elm-Tədqiqat Revmatologiya İnstitutunda iki ixtisas üzrə təhsilimi davam etdirmişəm. Ortopediya və Revmatologiya sahəsində. Biz hər üçümüz çox xoşbəxt insanlarıq ki, təhsil dövrümüz Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə düşüb. Mən və Paşa müəllim tələbəlik illərinin dostlarıyıq. 1968-ci ildə biz Azərbaycan Tibb İnstitutuna qəbul olduq və sonra eşitdik ki, Azərbaycan Respublikasının rəhbərliyində dəyişiklik olub. Heydər Əlirıza oğlu Əliyev Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi seçilib. Az bir vaxtda hiss etdik ki, onun Azərbaycan rəhərliyinə gəlişi ilə respublikada ab-hava kəskin surətdə yaxşılığa doğru dəyişir.Tez-tez eşidirdik ki, o, bazarlara, müəssələrə, kolxozlara, sovxozlara gedib və orada olan haqsızlıqları yerindəcə görüb, onların qısa bir zamanda həll olunmasına göstəriş verirdi. Günakarları cəzalandırırdı. Beləliklə, az bir vaxtda respublikamızda mövcud olan bütün neqativ hallar, hərəc-mərcliklər düzəlməyə başladı. Az bir vaxtda bacarıqsız müəssisə rəhbərləri də dəyişdirildi. Rüşvətxor adamlar rəhbərlikdən işdən çıxarılır, onların yerinə daha bacarıqlı, işğüzar adamlar təyin olunurdu.

İnanın ki, tez bir vaxtda respublikada böyük inqilabi dəyişikliklər baş verməyə başladı. Mühit dəyişdi, qayda-qanun yaranmağa başladı. Onun gəlişi ilə biz tələbələrin də həyatı dəyişməyə başlamışdı. Belə ki, respublikanın ali məktəblərində oxuyan tələbələrə qarşı daha da diqqət artdı. Ali məktəblərdən rüşvət yığışdırıldı. Əsasən təhsilin keyfiyyətini ə, tələbələrin yaxşı oxumasına fikir verməyə başladılar. Beləliklə, bizim təhsil illərimiz Ulu Öndərlə bağlı oldu. Həmin illər baxmayaraq ki, Sovetlər İttifaqında yaşayırdıq, hər yerdə böyük istedad vardı, amma başqa respublikaların müqayisədə Azərbaycanda sanki bir intibah dövrü başladı. Az bir vaxtda təkcə təhsildə yox, bütün sahələrdə çoxlu yeniliklər və inkişaf oldu. Azərbaycan dı gənclərimiz müxtəlif ixtisaslar üzrə SSRİ məkanında olan ölkələrin qabaqcıl institutlarında təhsil almağa göndərildi. Çoxlu sənaye müəsisələri açıldı. Artıq Azərbaycan keçmiş SSRİ məkanında qabaqcıl bir ölkə kimi tanınmağa başlandı. Məhz Ulu Öndərin fəaliyyətinə görə bizə SSRİ məkanında bir millət kimi hörmət artdı. Çünki Moskvada ast piranturada, doktoranturada oxuyanda biz bunun əyani şahidi olduq. Eləcə də mən on ildən çox Moskvada təhsil aldığım və işlədiyim dövrdə bunun tam şahidi olmuşam. Həmin illərdə dahi rəhbər özünün məqsədyönlü, yorulmaz və fərqli fəaliyyəti ilə bizi bir millət kimi tanıtmaqla yanaşı özünün Moskvada və SSRİ məkanındakı fəaliyyəti və maraqlı çıxışları ilə sanki, millətimizin pasportuna çevrildi. Çünki Zaqafqaziya adı çəkiləndə hamı yalnız gürcü və ermeni millətini bilirdi. Azərbaycanlıları tanımaq istəmir və bizlərə bazarda alvelçi kimi baxırdılar. Amma tez bir vaxtda Moskva başda olmaqla Rusiyanın aparıcı şəhərlərində və SSRİ məkanında bizim çoxlu alimlərimiz, tanınmış insanlarımız meydana çıxdı. Ədəbiyyatımız, incəsənətimiz geniş təbliğ olunmağa başladı, idmanımız məhşurlaşdı. Səhiyyə sahəsində çalışan insanlarımız da tanınmağa başlandı. Zaqafqaziyada yaşayan başqa millətlər arasında azərbaycanlıların daha ağıllı, savadlı, elmli olduğu məlum oldu. Dahi Heydər Əliyev həmin vaxtı SSRİ-nin

(Portret cizgiləri)

bir çox rəhbər şəxslərini, o cümlədən Səhiyyə naziri Çazovu,Təhsil naziri Yelyutini Azərbaycana gətirdi. Onlar gəlib Azərbaycanda səhiyyənin və təhsilin yüksək səviyyədə olduğunu görürdülər və bu sahələrin daha da inkişaf etməsinə lazimi köməkliklər edirdilər. Onların gəlişi ilə dahi həmçinin Tibb İnstitutunda və başqa ali məktəblərdə yeni fakültələr açıldı. Bir sözlə Azərbaycan təhsilinə diqqət çox artdı. Bilirsiniz ki, hər bir millətin inkişafı onun təhsili ilə bağlıdır.Təhsil yoxdursa millətin gələcəyi də yoxdur. Dahi Lider də buna çox diqqət verirdi və təhsilimizin yüksək səviyyədə olmasına var qüvvəsi ilə çalışırdı. Məhz buna görə də cavan-



larımızı daha çox SSRİ məkanında olan məhşur ali məktəblərə təhsil almağa göndərirdi. Elə həmin zamandan da yeni təfəkkürlü mütəxəssislər, alimlər yetişməyə başladı. Biz də burada ali məktəbi bitirəndən sonra təhsilimizi davam etdirmək üçün Moskvaya can atırdıq. Bilirsiniz ki,həmin vaxtı SSRİ təhsilinin beşyi Moskva idi. Biz hər üçümüz-Paşa müəllim, siz və mən orada təhsil almışıq və bunun tam şahidi olmuşuq. Həmin vaxtı Heydər Əliyevin ideyası ilə respublikamızda belə bir məsələ qaldırıldı ki, səhiyyənin geridə qalan sahəsi olan oynaq xəstəlikləri üzrə ixtisas almaq üçün cavan mütəxəssislər seçlib Moskvaya göndərilsin. Bu məsələnin zəruriliyini Azərbaycanda bununla bağlı yaxşı mütəxəssislər olmadığına görə Ulu Öndərin təsadüfən oynaqlarında olan problemlə bağlı Moskvada mütəxəssislərə müraciət edərkən anlamışdı. Ona görə də istəyirdi ki, bu sahədə yaxşı mütəxəssislərimiz olsun. Ümumiyyətlə, prezidentimiz Heydər Əliyev də vətənpərvər bir lider kimi istəyirdi hər sahədə Azərbaycanda çox yaxşı mütəxəssislər olsun. Ulu Öndər səhiyyə sahəsinə daha çox diqqət edirdi. Məhz buna görə bu gün respublikamızda həm ürək cərrahiyyəsi, həm oftalmologiya, həm revmatologiya və ümumiyyətlə səhiyyənin bütün sahələrində dünya səviyyəli mütəxəssislər yetişdirildi. Millətimizin nümayəndələri olan mütəxəssislərdən xarici ölkələrdə işləyənləri də çoxdur. Bu da məhz ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində baş verdi.



- Ulu Öndərdə hansı oynaq xəstəliyi olub?

- Podaqra xəstəliyi. Bu xəstəliyə əsasən dünyanın ən çox tanınmış, dahi tarixi şəxsiyyətlərində rast gəlinib. Məsələn Fyodor Dostoyevskidə, Leonardo Dovinçidə, Napaleon Bonapartda, Fateh Mehmetdə, Sultan Süleymanda və yüzlərlə tanınmış, görkəmli adamlarda bu xəstəlik qeydə alınıb. Ona görə də Ulu Öndər istəyirdi ki, bu sahədə bacarıqlı həkimlərimiz olsun. Mən də Moskvada təhsil almağa ilk göndərilən oldum. Moskvalı alimlər də Ulu Öndərə münasibətə görə deyirdilər ki, "sizi Azərbaycan üçün yaxşı kadrlar hazırlamaq məsuliyyəti daşıyırıq. Çünki bu Heydər Əliyevin ciddi tapşırığıdır". Mən də orada elmi işimin ilk etapını müvəffəqiyyətlə başa çatdırıb, yenidən Azərbaycana qayıtdım. Həmin dövrdə mütəxəssislərimiz, tibb sahəsində elmlər doktorlarımızın çoxu yaşlaşmışdı. Yenə də Ulu Öndərin təşəbbüsü ilə yüksək elmi kadr çatışmamazlığı yaranmasın deyə, biz cavan kadrları yenidən Moskvaya göndərdilər ki, elmi işlərimizi müdafiə edib, elmlər doktorları kimi Azərbaycana qayıdıb, həmin yaşlı nəsli əvəz edə bilək. Elə həyiblər ki, mən düz demişəm. Zərifə xanım istəyirdi ki, mən qalıb Ulu Öndərin müalicəsinin tam bitməsinə nəzarət edim. Mən də vurguladım ki, həkimlərə tapşırmışam özüm də hər şeyə Moskvadan nəzarət edəcəm.

Beləliklə, mənim Moskvada doktorantura təhsil illərim başladı. Elə həmin vaxt Ulu Öndər də Moskvaya işləməyə gəldi. SSRİ Nazirlər Sovetinin birinci müavini təyin edildi və MK siyasi bürosunun üzvü seçildi.Eyni zamanda sahənin kuratoru oldu. Həmin vaxtı SSRİ səhiyyə işçiləri qarşısında onun "SSRİ Səhiyyəsinin inkişafı prespektivləri haqqında" çox məhşur bir çıxışı oldu. Həmin çıxışa qulaq asan Moskvanın tanınmış tibb alimləri o cümlədən bizim rəhbərimiz olan V. Nasonova və məhşur həkimlər onun səhiyyəni belə incəliyinə qədər bilməsinən mat qalmışdılar. Mənim rəhbərim V. Nasonova deyirdi ki, "biz belə düşünə bilməzdik. Heydər Əliyev elə çıxış etdi ki, sanki bu sahənin akademikidir". Həmin vaxtı Donetsk vilayətinin partiya komitəsinin yüksək rəhbər işçilərindən biri mənim xəstəm olmuşdu. O, Heydər Əliyevi yaxşı tanıyıdı və deyirdi ki, "siz fəxr etməlisiniz ki, sizin Heydər Əliyev kimi bir rəhbəriniz var". Ulu Öndər Moskvaya gəldiyi ilk günlərdən ayrı-ayrı təşkilatlarda tez-tez yüksək səviyyədə çıxışlar edirdi. Onun yüksək savadı, dərin biliyə malik olması SSRİ Kommunist Partiyası Siyasi Büro üzvlərindən çox seçilirdi. Həmin dövrdə SSRİ -də baş verən fövqəladə hadisələrin həllini də məhz ona tapşırırdılar, o da bütün bu tapşırıqları peşəkarlıqla çox qısa vaxtda və yaxşı həll edirdi.

- Eşitmişəm ki, məşhur akademik Zərifə xanım vəfat edəndə siz də Moskvada olmusunuz. Həmin vaxtı onun dəfni necə təşkil olundu?

- Bəli. Həmin vaxtı Paşa müəllim və mən də Moskvada idik. Dəfn mərasimində iştirak etdik. Həmin vaxtı Siyasi Büronun bütün üzvləri həyat yoldaşları ilə həmin mərasimdə iştirak etdilər. Dəfn SSRİ Tibb Elmləri Akademiyasının binasında təşkil olundu. SSRİ-nin bütün yüksək vəzifəli şəxsləri və məhşur insanları orada idi. Həmin hadisədən təxminən bir neçə gün sonra SSRİ səviyyəsində Kremlin əzəmətli iclaslar salonunda çox böyük tədbir keçirildi. Həmin tədbirdə əsas çıxışı da Siyasi Büronun üzvü kimi məhz ulu öndər Heydər Əliyev elədi. Sevimli həyat yoldaşını itirəndən iki gün sonra onun belə əhatəli, səlis və yüksək səviyyədə çıxış etməsindən hamı heyrətə gəlmişdi. Onun gözəl bir arator, natiq kimi belə yüksək səviyyəli, dolğun çıxışları Siyasi Büro üzvləri və yüksək səviyyəli rəhbərlər arasında böyük qıcıq yaradırdı. Ona həsəd edənlərin sayı günbəgün artırdı. Amma biz azərbaycanlı tələbələr dahi rəhbərin belə məhşur olmasından qürur duyurduq. Bu, bizim üçün böyük fəxarət idi. Doktorluq işimi qurtardıqdan sonra mən çox istəyirdim ki, Moskvada qalıb işləyim və daha da inkişaf edim. Bunun üçün işlədiyim institutda zəmin də vardı, həm də mənə təklilfər də olunurdu. Amma mən bu sahənin inkişafı üçün və ən nəhayət Azərbaycandan gönderişə göndərildiyimə görə yenidən Vətənə qayıtdım. Həmin vaxtı Xalq Cəbhəsinin dövrü idi.1988-ci illərdən başlayan xaos dövrü hələ də davam edirdi və bunu həll edə bilən rəhbər də yox idi. Həmin vaxt ölkəyə rəhərlik edənlər də təcrübəsiz adamlar idilər, dövlət idareçiliyində böyük problemlər var idi. Digər tərəfdən erməni separatçıların vəhşiliyi, arxalarında Moskvanın dayanması, Qarabağ müharibəsi, bu müharibədə bizim təslənməyimiz ölkəni dağılmaq, parçalamaq qarşısında qoymuşdu. Biz də istəyirdik ki, Ulu Öndər Azərbaycana rəhbərlik etməyə gəlsin. Ona görə həmin 91-ləri siyahısına mən də imza atdım. Çox şadam ki, həmin 91-lərdən biri də mənəm. Millətimizin böyük təkidi, istəyi və çağırışı ilə əbədiyaşar Heydər Əliyev Bakıya gəldi və Milli Məclisin sədri oldu. O vaxtı Milli Məclisə seçkilər başladı və təklif olundu ki, mən də namizədliyimi verim. Əlbəttə, mən heç də deputat olmaq istəmirdim, öz sahəmdə çalışmaq istəyirdim. Amma məsləhət bilindi ki, mən də bu seçkilərdə iştirak edim. İştirak etdim və Millət vəkili seçildim. Həmin vaxtı da Artrologiya Mərkəzini yaratmaq istəyirdik. Artıq yüksək ixtisaslı hazırlanmış kadrlarımız da Moskvada təhsil alıb qayıtmış, tibb elmləri doktorlarımız, elmlər namizədlərimiz də vardı, amma bizdə Artrologiya Mərkəzini yaratmaq böyük çətinliyə düşmüşdü . Qonşu respublikalarda belə mərkəzlər çoxdan vardı, amma bizdə kadrların hazırlanmasına baxmayaraq yox idi. Keçmiş rəhbərlərin dövründə Mərkəzin açılışı müşkülə düşmüşdü. Ulu Öndərin yenidən rəhbərliyə qayıdışı bizə bu işdə böyük təkan verdi və mən Millət vəkili seçilməndən sonra bu məsələni reallaşdırdıq. Nəhayət 1998-ci ildə uzun illər təşkil olunması üçün mücadilə etdiyimiz və bilavasitə Ulu Öndərin təşəbbüsü ilə əsası qoyulmuş Respublika Elmi Artroloji Mərkəzi onun özünün iştirakı ilə açıldı.

Onun Mərkəzin açılışında keçirdiyi

məmnunluq hissləri və biz həkimlər üçün verdiyi qiymətli tövsiyyələr heç vaxt unudulan deyil.

Bu mərkəzin açılışı ilə Respublikamızda Artroloji qulluğun əsası qoyuldu. İnsanların sağlamlığı üçün çox böyük əhəmiyyət kəsb edən bu mərkəz minlərlə xəstələrin güman yerinə çevrildi, burada yeni bir tibb məktəbi kimi yüksək ixtisaslı kadrlar hazırlanmağa başlandı. Ölkəmizdə səhiyyənin bu sahədə olan gerilikləri aradan qaldırıldı.

- Eşitmişkən siz onunla bir sıra xarici səfərlərdə də olmusunuz. Deyirlər ki, əbədiyaşar Heydər Əliyev həmin səfərlərdə elə bil ki, tam başqa insan olurdu. Çox maraqlı söhbətlər edir, hətta maraqlı lətifələr də danışırmış.Yəni onun yol-yoldaşlığı böyük bir dünya idi. Siz bu haqda nə deyə bilərsiniz?

- Düz deyirsiniz. O, həqiqətən həmin səfərlərdə bir Prezident olmaqla yanaşı ətrafdakılara qarşı daha ünsiyyətli və səmimi idi.Yadıma gəlir ki, bir dəfə Moskvaya uçurduq. Millət vəkili olsam da pratakolla həmin siyahıda yox idim. Yəni Prezidentin səfər qrupunun üzvü deyildim. Amma mən də həmin Prezident təyyarəsində idim. Artroloji Mərkəzi açmaq üçün xaricdən tibbi avadanlıqlar gətirmeli idim. Ulu Öndər həmin təyyarə ilə Almaniyaya uçmalı idi.Təyyarədəki deputatları yanına fikir mübadiləsi üçün çağırdı. O, həmişə belə səfərlərdə dövlət nümayəndələri ilə təmas qurur, müzakirələr edirdi. Məni də çağırdılar ki, onun yanına gedim. Dedim ki, axı mən siyahıda yoxam. Dedilər ki,sizi də çağırır. Həyacanlanırdım ki, buna mənfi reaksiya verə bilərdi, çünki onun icazəsi olmadan "müəyyən tanışlıqla" o təyyarədə uçmalı oldum. Gəldim yanına, gülə-gülə dedi ki, "sən hara gedirsən, ay Eldar?" Dedim sizin təyyarədən pulsuz istiadə edib, Artroloji Mərkəz üçün avadanlıqlar almağa gedirəm, cənab Prezident. Ucadan güldü. Sonra xaricdəki azərbaycanlı diaspora haqqında fikir mübadiləsi oldu. Mən də öz fikirlərimi dedim. Həmin vaxtı dünya azərbaycanlıları və diaspora ilə bağlı mənim də çoxlu təməslarım olurdu, bu məsələ məni də çox maraqlandırırdı. Hətta Ulu Öndərə bununla bağlı bir təkliflər məktubu da yazmışdım ki, bu məsələni mən necə görürəm. Çünki həmin vaxtı diaspora ilə bağlı bir pərakəndəlik vardı. Təklif eləmişdim ki, bu sahədə bir dövlət qurumu olsun və bütün işləri də həmin qurum görsün. Məhz bundan sonra həmin vaxtı Prezident Administrasiyasında bununla bağlı bir şöbə yaradıldı. Sonra Diasporlarla bağlı iş üzrə Dövlət Komitəsi yaradıldı. Bundan sonra bütün işlər qaydasına düşdü.

Bir dəfə də mən protakolla siyahıda idim. Prezidentlə nümayəndə heyəti kimi Moskvaya getmişdik. Moskvada ona xüsusi yer vermişdilər. Məhz eyni zamanda podaqra xəstəliyi ilə bağlı bir qədər ağrıları olduğuna görə mən yanında idim. O vaxtı Rusiyanın Xarici İşlər Naziri Yevgeniy Primakov onun yanına gəldi. Çox səmimi görüşdülər. Rəsmi söhbətdən sonra Primakov xahiş elədi ki,köməkçisi olan bir ermeninin anasının qəbri Bakıdadır, onun sümüklərinin Bakıdan Moskvaya aparılmasına icazə versin. Onun sözlərini eşidən vaxtı Ulu Öndər Primakova çox sərt formada dedi: "Yevgeni , bizim minlərlə azərbaycanlıların qəbrləri Ermənistandadır. Bəs onların qəbrlərinin Azərbaycana gətirilməsinə kim köməklik edəcək?" Primakov onun bu sərt cavabından sonra heç nə demədi.

Oradan qayıdandan sonra Naxçıvana uçmalı olduq. 1998-ci il idi. Həmin vaxtı dahi Hüseyn Cavidin məqbərəsi açılırdı. Soyuq bir gün idi. Ulu Öndər üç saat həmin açılışda iştirak etdi. Baxmayaraq ki, ağrılar çox idi, amma bunu heç kim hiss etmirdi.Təkcə mən onu izləyərkən hiss edirdim ki, üzündə gərginlik var. Həmin axşam onun vəziyyəti bir az da pisləşdi.Yenə də heç nəyi biruzə vermirdi.Yalnız mən bilirdim ki, çox üzücü olan podaqra ağrıları artıb. Əlimdən gələni etdim ki, ağrıları azalsın. Ümumiyyətlə, Ulu Öndər çox səmimi və yüksək iradəli bir insan idi. Onun Azərbaycan üçün, Sovetlər birliyi üçün etdikləri bir yazının yox, yüzlərlə kitabların mövzularıdır. Müasir Azərbaycanımızın müstəqilliyinin təməlini o, hələ Sovetlərin vaxtında qoymuşdu. Çünki o, bilirdi ki, hər şeyin əsasını güclü iqtisadiyyat təşkil edir. Ona görə o var-gücü ilə Azərbaycanda sənayənin bütün sahələrinin, o cümlədən kənd təsərrüfatının, elmin, mədəniyyətin, hərbi sahənin inkişafı üçün nə mümkündürsə onu etməyə çalışırdı və buna ümumən nail də olmuşdu. SSRİ-dən böyük məblağdə pulları Azərbaycana cəlb elədi. Sovetlər qruluşu dağılandan sonra gör neçə il biz, həmin vaxtı tikilən zavodların, fabriklərin, böyük müəssələrin hesabına ayaq üstə olduq. İndi də həmin müəssisələrin çoxu işləyir. Strateji sahələrin təməl daşı da məhz həmin vaxtı quruldu. Çoxlu sosial binalar, mehmanxanalar, böyük obyektlər, mədəniyyət sarayları həmin vaxtı tikilirdi. Gərək bütün bunları xalqımız heç vaxt unutmasın. Azərbaycan həmin vaxtı Ulu Öndərin sayəsində bir intibah dövrü yaşadı. Ona görə biz hər bir azərbaycanlı bu böyük Öndərin 100 illik yubileyini, eləcə də görkəmli akademik Zərifə xanım Əliyevanın yubileyini çox yüksək səviyyədə keçirməliyik. Hər kəsin onlarla bağlı xatirələri varsa, bütün bunlar yazılmalı və gələcək nəsillər üçün qalmalıdır.

Çox sevinirik ki,Ulu Öndərimizin davamçısı, cənab İlham Əliyev onun bu kursunu çox yüksək səviyyədə davam etdirir. 44 günlük Vətən müharibəsində ki qələbəmiz isə bütün bu işlərin ən pik nöqtəsi oldu. İlham Əliyev bir prezident kimi xalqımızın həyatında ən önəmli tarixi hadisəsi olan Qarabağın faşist ermənilərdən azad edilməsi, böyük qələbəsi ilə tarixdə qalıb sərkərdə kimi əbədi yaşayacaq. Hətta həmin vaxtı mənim dostum Paşa Qəlbinur öz statusunda prezidentə müraciətə belə bir cümlə yazmışdı: "Şuşaya sancılan bayrağımız, ən uca zirvəmizdir". Gəlin danmayaq. İndiki dünyada gedən çox çətin siyasi vəziyyətlərdə cənab prezidentimiz İlham Əliyev elə zərgər dəqiqliyi ilə işlər görür və dərin siyasət aparır ki, xalqımızı bu çətin vəziyyətlərdən böyük ustalıqla keçirir. Elə bu, böyük alqışa layiqdir.

Dahi Heydər Əliyev deyirdi ki, "Milli azadlığa nail olmaq üçün milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır". Bax, cənab İlham Əliyev də bu kəlama riayət etməklə, millətimizin milli oyanışına, milli dirçəlişinə çalışır.

Ağalar İDRİSOĞLU,
Əməkdar incəsənət xadimi

Heydər Əliyev-100